**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

*Haraya:* SBRL, SVYN, SSOF, SLND, SPRQ, STLN, SPRS, SZQR, SMDR, SROM, SSTH, SRİQ, SVLS, SBDP, SHAQ, SVRŞ, SBXR, SLBL, SAFN

*Göndərilmə nömrəsi:* s/32-3844/32/17 *Tarix:* 15.02.17

*Sənəd necə göndərilir:* **El. poçt** *Əlavə olunur: 3 vərəq*

*Səhifələrin sayı:* **1**

*Məhdudluğu qrifi:* **Adi**

*Təcililiyi:* **Adi**

Vacibliyi: **Vacib**

Bununla, 7 fevral 2017-ci il tarixində Brüssel şəhərində keçirilmiş Azərbaycan Respublikası və Avropa İttifaqı (Aİ) arasında "Strateji Tərəfdaşlıq haqqında Saziş" layihəsi üzrə ilkin danışıqlar görüşünün hesabatını işinizdə istifadə üçün göndəririk.

MİƏİ-nin rəisi Anar Hüseynov

MİƏİ-nin şöbə müdiri Orxan Zeynalov

İcraçı: Rövşən Mirzəyev (2080)

**Azərbaycan Respublikası və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq haqqında saziş layihəsi üzrə ilkin danışıqlar görüşünün hesabatı**

7 fevral 2017-ci il, Brüssel

Azərbaycan Respublikası (AR) və Avropa İttifaqı (Aİ) arasında yeni ikitərəfli saziş layihəsi (Saziş) üzrə ilkin danışıqlar (0 mərhələ danışıqları) görüşü 7 fevral 2017-ci il tarixində Brüssel şəhərində Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) mənzil qərargahında keçirilmişdir.

Azərbaycan nümayəndə heyətinə yeni saziş layihəsi üzrə ölkəmizdən baş danışıqçı olacaq AR xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev, Aİ heyətinə müqabil tərəfin baş danışıqçısı təyin edilmiş EEAS-ın Avropa və Mərkəzi Asiya üzrə icraçı direktorunun müavini Lük Dövin rəhbərlik edirdi. Azərbaycan nümayəndə heyətinin tərkibində həmçinin AR-in Aİ yanında Daimi Nümayəndəliyinin rəhbəri Fuad İsgəndərov, Nümayəndəliyin müşaviri Elçin Bəşirov, Nümayəndəliyin birinci katibi Anar Şükürov, XİN-in şöbə müdirləri Leyla Abdullayeva və Orxan Zeynalov, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Ruslan Rüstəmli də olmuşdur.

Qeyd etmək lazımdır ki, "0 mərhələ danışıqları" Saziş layihəsi üzrə heç bir substantiv müzakirələr aparmır, sadəcə danışıqlar qrupuna rəhbərlik edəcək şəxslər arasında tanışlıq məqsədi daşıyır. Bu zaman tərəflər danışıqlar mərhələləri arasında vaxt intervallarını, keçirilmə növbəliliyini və formalarını (səfər və ya videokonfrans) və digər texniki məsələləri razılaşdırır.

## Ümumi şərhlər və prinsiplər

Qarşılıqlı salamlaşmadan sonra L.Dövin AR Prezidentinin 6 fevral tarixində Belçikaya etdiyi işgüzar səfərin uğurlu və Saziş üçün hazırkı şərtlərin əlverişli olduğunu qeyd etmişdir. O, Sazişin iddialı və hərtərəfli olacağına, əlaqələrin təkamülünü əks etdirəcəyini və bərabər və qarşılıqlı fayda prinsipinə söykənəcəyinə inandığını bildirdi. L.Dövin bir daha saziş layihəsinin tərəfdaş ölkə tərəfindən təqdim edilməsinin ənənəvi hal olmadığını və bunun üçün Azərbaycan tərəfinə minnətdar olduqlarını, lakin bu məsələ ilə bağlı Aİ-daxili qaydaların da olduğunu diqqətə çatdırdı.

Bununla yanaşı L. Dövin yeni sazişlə bağlı daha bir neçə məqamı qeyd etdi:

- Saziş fərqləndirmə (differentiation) elementini ehtiva edə bilər
- Saziş mətnində demokratiya dəyərləri və qanunun aliliyi prinsiplərinə mütləq yer olmalıdır
- Saziş tərəflər arasında ikitərəfli gündəlikdən təcrid olunmuş halda nəzərdən keçirilməməli, onu tamamlamalıdır
- Azərbaycan tərəfinə təqdim edilmiş tərəfdaşlıq prioritetləri (partnership priorities) qarşılıqlı maraq kəsb edən sahələrdə islahatlara diqqət yetirilməsinə xidmət edəcək
- Danışıqlar prosesinin səmərəliliyini artırmaq məqsədilə onun təşkili ilə bağlı texniki məsələlər də önəmlidir

M.Məmməd-Quliyev çıxışında aşağıdakı məsələləri qeyd etdi:

- AR Prezidentinin Brüsselə işgüzar səfəri AR-Aİ əlaqələrinin dərinləşəcəyinə töhfə verəcək
- Strateji tərəfdaşlıq haqqında saziş layihəsi üzrə danışıqlar prosesi çərçivəsində bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı hörmət və ortaq maraqların qorunması kimi 3 əsas prinsipə əməl olunmalıdır
- Danışıqlar zamanı üçüncü tərəflərlə (digər Şərq Tərəfdaşlığı ölkələri, o cümlədən Ermənistana dolayı istinad) oxşar təcrübəyə uyğunlaşdırma və müvafiq paralellərin

gətirilməsi yersizdir və danışıqlar qruplarının fəaliyyəti yalnız sazişin iki tərəfinin maraqları və prioritetləri üzərində qurulmalıdır

- Danışıqlar prosesi "daxili və xarici" süni ləngidici əngəllərdən azad olmalıdır
- Tərəflər arasında etimad yaradılması üçün prioritet elementlərin birinci növbədə razılaşdırılması vacibdir
- Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığına Al-nin dəstəyinin və müvafiq olaraq hərəkət edəcəyi öhdəliyinin (committed to act accordingly) Strateji tərəfdaşlıq sazişi layihəsində aydın şəkildə əks olunması Azərbaycan tərəfi üçün ən vacib məsələdir. Aİ tərəfindən Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək sadəcə hazırkı Saziş üzrə deyil, həmçinin tərəflər arasında ikitərəfli əlaqələrin əsasını təşkil edir. Bu məsələdə Azərbaycan tərəfinin mövqeyi prinsipialdır və bununla bağlı hər hansı güzəşt və ya müzakirələrə yer yoxdur
- Enerji sahəsində Aİ ilə strateji əməkdaşlıq uğurla inkişaf etdirilir və Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsində tərəflərin birgə öhdəliklərinin, o cümlədən Aİ üzv ölkələrinin və Avropa Komissiyasının sözügedən layihəyə davamlı dəstəyinin müzakirə olunacaq mətndə əks etdirilməsi önəmlidir
- Qeyri-enerji bloku üzrə o cümlədən, iqtisadi və ticarət diversifikasiyası, bağlantılar, ətraf mühit, miqrasiya, yerdəyişmə, elm və təhsil, qanunun aliliyi, yaxşı idarəçilik və korrupsiya ilə mübarizə, qanunsuz fəaliyyətlə mübarizə, multikulturalizm sahələrində geniş əməkdaşlıq potensialı mövcuddur
- Nəqliyyat sahəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir

**Danışıqlar prosesinin strukturu, vaxt cədvəlləri və danışıqlar qrupları**

Aİ tərəfindən danışıqlar qrupunun tərkibi ilə bağlı L.Dövin danışıqların 3 qrup – siyasi-təhlükəsizlik, ticarət-iqtisadi və sektoral (o cümlədən enerji, nəqliyyat və humanitar məsələlər) üzrə aparılacağını bildirərək, hər bir blok üzrə danışıqçını təqdim etdi.

L.Dövin özünün eyni zamanda siyasi-təhlükəsizlik qrupu üzrə danışıqlar qrupunun rəhbəri olacağını, ticarət-iqtisadi qrupa Avropa Komissiyasının Ticarət Baş Direktorluğunun Rusiya, MDB, Ukrayna, Qərbi Balkan, Avropa Azad Ticarət Assosiasiyası (EFTA), Avropa İqtisadi Zona (EEA) və Türkiyə bölməsinin direktoru Petros Surmelis, sektoral qrup üzrə danışıqlara isə EEAS-ın Şərq Tərəfdaşlığı ölkələri ilə ikitərəfli münasibətlər şöbəsinin direktoru Dirk Şubelin rəhbərlik edəcəyini diqqətə çatdırdı.

Aİ tərəfi hər blok üzrə danışıqların təşkilinə hazırlıq və əlaqələndirmə işlərinə məsul olacaq bir icraçı katibin fəaliyyət göstərəcəyini bildirdi və icraçı katiblərin saziş mətni üzrə təklif və məlumat mübadiləsi üçün əsas kanal olmasını təklif etdi.

I qrup siyasi dialoq, təhlükəsizlik, azadlıq, ədliyyə məsələləri, həmçinin ümumi məqsədlər və prinsiplər və istənilən horizontal məsələləri əhatə edəcək.

II qrup ticarət, sərmayə, enerji ticarəti məsələlərinə cavabdeh olacaq.

III qrup çərçivəsində iqtisadi və sektoral məsələlər əhatə olunacaq.

L.Dövin danışıqlar raundlarının (plenar iclas) hər 10-12 həftədən bir keçirilməsini təklif etdi. Baş danışıqçıların həmsədrliyi ilə keçiriləcək plenar iclaslar danışıqların ümumi gedişini tənzimləyəcək və açıq qalan məsələlərə aydınlıq gətirəcəkdir. Aİ tərəfinin təklifinə əsasən işçi qruplar plenar iclaslarla paralel və ya dərhal sonra/qabaq/ardıcıl keçirilə bilər. II və III qruplarla

bağlı L.Dövin önceki təcrübələrə istinadən danışıqların video-konfrans formatında keçirilməsinin mümkün olduğunu söyləmişdir.

Aİ tərəfi birinci raundun cari ilin 24 aprel tarixində başlayan həftədə Bakıda keçirilməsini təklif etmişdir.

L.Dövin ikinci raundun iyul ayında Brüsseldə, üçüncü raundun oktyabr ayında Bakıda və 2017-ci il üçün son raundun dekabr ayında Brüssel şəhərində keçirilməsini təklif etmişdir. Danışıqlar raundlarından əlavə, video-konfransların da təşkil olunması təklif edildi.

Nazir müavini M.Məmməd-Quliyev Azərbaycan tərəfindən də danışıqlar qrupunun tərkibinin formalaşdırıldığını, baş danışıqçının təyin olunduğunu, həmçinin, təklif olunmuş 3 blok üzrə danışıqçıların müəyyən edildiyini diqqətə çatdırdı. O, Aİ tərəfinin Azərbaycan tərəfindən təqdim edilmiş Saziş layihəsinə dair hərtərəfli münasibətin bildirilməsini və aidiyyəti dövlət qurumları ilə müvafiq əlaqələndirmə işləri səbəbindən bunun danışıqlar raunduna ən azı 2 həftə qalmış edilməsini xahiş etdi. Nazir müavini Assosiasiya sazişi üzrə danışıqların təcrübəsini misal gətirərək vahid mətn üzrə işin aparılmasının vacib olduğunu söylədi.

Ticarət bloku üzrə Aİ tərəfindən danışıqçı P.Surmelis ticarət müddəalarının əhəmiyyətini, Azərbaycanın Aİ-nin Şərq Tərəfdaşlığı bölgəsində ikinci ən böyük tərəfdaşı olduğunu, həmçinin, Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişində təsbit olunmuş ticarət müddəalarının genişləndirilməsi və biznes mühitinin asanlaşdırılması, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) prinsipləri kimi məsələlərin yeni sazişin ticarət fəsilləri üzrə danışıqlar mövzusu olacağını bildirdi. Bu xüsusda L.Dövin Azərbaycanın ÜTT və Avrasiya İqtisadi Birliyinə üzv olmadığını saziş üzrə danışıqlar zamanı tərəflərə əlavə üstünlük verən çeviklilik amili (extra flexibility) kimi qiymətləndirdi.

Tərəflər ən qısa zaman ərzində icraçı katiblər arasında təmasların və əlaqələndirmə-hazırlıq işlərinin davam etdiriləcəyi barədə razılığa gəldilər.

Görüşün sonunda danışıqların strukturu, saziş mətnlərinin redaktə şablonları və digər texniki elementləri özündə ehtiva edən qaydaları, həmçinin yeni sazişin fəsillər/sahələr üzrə ümumi strukturu ilə bağlı Aİ-nin təklifləri təqdim edildi.

*Hazırladı: Orxan Zeynalov*